

**Dörd ay bundan əvvəlin söhbətidir. Təqvimi vərəqləyir, maraqlı məqalələri nəzərdən keçirir, növbəti sayımızda gedəcək materialları götür-qoy edirdim. Birdən gözüm iyulun 1-də qeyd olunacaq yubileylərin, həyata keçiriləcək tədbirlərin siyahısına sataşdı. Həmin günü xarakterizə edən cəhətlər çox idi. Onlardan biri də Ağdam, Tərtər və Xocalı rayon mədəniyyət və turizm şöbə müdirləri Şahin Qasımov, Telman Məmmədov və Alim Rüstəmovun doğum günlərinin eyni vaxta - iyulun 1-nə təsadüf etməsi ilə bağlı idi.**

# İLLƏRİN HÖKMÜ

**Təbii ki, bu münasibətlə hər üçünü təbrik edib onlara uğurlar dilədim. Amma Şahin müəllimlə söhbətim daha uzun alındı...**

Dəstəyi götürüb ona zəng çaldım:

- Salam, ay qardaş! Necəsiniz? İşiniz- gücünüz, ailə, ev-eşik, dostlar necədir?!

- Təşəkkür edirəm! Sizdə nə var, nə yox?!

- Belə də ... Sağ olun! Hər şey qaydasındadır... Şahin müəllim...

- Bəli...

- Sizdən bir xahişim var...

- Buyurun...

- Ağdamda xətrini çox istədiyim, xüsusi hörmətini saxladığım sadə, səmimi, etibarlı, mehriban, xeyirxah, qayğıkeş bir dostum var. Nə qədər zəng edirəmsə düşə bilmirəm. Görünür işi çoxdur. Zarafat deyil, o boyda kollektivə rəhbərlik edir. Tədbirlərdə, toplantılarda olur... Nə isə, vaxtınızı çox almayım, xahişim odur ki, həmin adamı tapasınız, qoy mənə zəng vursun. Çalışın tez olsun. Vaxt yaman dardır. İyulun 1-də ad günüdür. 60 yaşı tamam olur. İstəyirəm yubilyar haqqında bir yaxşı yazı verək...

- İyulun 1-də 60 yaşı tamam olur?!

- Hə...

-Həmin gün mənim də yubileyimdir...

- Ay saqqalı ağarmış, mən elə sizi deyirəm də...

Ürəkdən güldü:

- Yaşar müəllim, diqqətinizə görə çox sağ olun. Məni yaman duyğulandırdınız. Bəs heç demədiniz, bu tərəflərə nə zaman gəlirsiniz?!

- Yaxınlarda gələ bilməyəcəm. İşim çoxdur. Amma ilk fürsətdə sizə baş çəkəcəyəm. Sağlıq olsun. Ona qədər siz gözləməyin. Təcili son vaxtlar həyata keçirilmiş tədbirlərlə bağlı mənə hesabatvari bir məlumat göndərin.

- Onda 2-3 ay yubadacağam. Bir sıra maraqlı layihələrimiz var, onları da gerçəkləşdirək ki, daha müfəssəl məlumat olsun...

Beləcə sağollaşdıq. İndi aradan dörd ay ke-

çəndən sonra Şahin müəllimdən Ağdam Rayon Mədəniyyət və Turizm Şöbəsinin gördüyü iş haqqında geniş hesabat almışıq. Yenə də təvazökarlıq edib. Özü haqqında heç nə yazmayıb.

**Əslində buna ehtiyac da yoxdur. Bu neçə ildə bir-birimizin xeyir-şərində olmuş, birgə tədbirlərə qoşulmuş, məclislər yola vermişik. Nəticədə xarakterimizdə cəmləşən keyfiyyətlərdən, həyat yollarında imza atdığımız uğurlardan xəbər tutmuş, dostlaşmış, kədərimizi bölüşüb, sevincimizi paylaşmışıq...**

Qasımov Şahin Həsən oğlu 1950-ci il iyulun 1-də Ağdam rayonunun Yusifcanlı kəndində anadan olub. 1967-ci ildə kənddəki orta məktəbi uğurla başa vurub. 1967-1970-ci illərdə Yusifcanlı orta məktəbinin kitabxanaçısı işləyib. 1970-1972-ci illərdə ordu sıralarında xidmət edib. 1972-1976-cı illərdə kənd mədəniyyət evinin müdiri vəzifəsində çalışıb.

1976-2000-ci illərdə rayon mədəniyyət şöbəsinin inspektoru olub. 2000-ci il iyulun 21-dən Ağdam Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiridir. Gözəl ailə sahibidir, 4 ağıllı övladın atası, 5 şirin nəvənin babasıdır.

Arxada qalan illərin heç biri Şahin müəllim üçün havayı, səssiz-soraqsız ötüşməyib.





Onların hamısında sevinc də var, qəm də, illərin rəvan getdiyi vaxtlar da olub, problemlərlə üzləşdiyi anlar da...

Amma necə yaşamağından, hansı çətinliklərlə qarşılaşmağından asılı olmayaraq ümidini itirməyib, inamını azaltmayıb...

Dəyərli oxucularımıza, həmsöhbətimin tərcümeyi-halını bilməsələr belə yuxarıda sadaladığımız illərə nəzər yetirmələri kifayətdir ki, Şahin Həsən oğlunun nələr çəkdiyini, nələr yaşadığını duysunlar.

1976-cı il! İndi çoxlarının necə qiymətləndirməsindən fərqli olaraq Azərbaycanımızın bir-birindən möhtəşəm uğurlara imza atdığı dövr, dünyanın düz vaxtı idi. 26 yaşlı Şahin yaxşı işinə görə Ağdam Rayon Mədəniyyət Şöbəsinin inspektoru vəzifəsinə irəli çəkilir. Bu təyinatla şöbədə bir dirçəliş duyulur, mədəni-maarif müəssisələrinin fəaliyyətində bir canlanma yaranır. Bu uğur neçə illər davam edir...

1993-cü il. Başqa bölgələrimiz kimi hər vaxt şan-şöhrəti, ad-sanı, uğurları ilə öyündüyümüz Ağdam rayonu da məkrli havadarlarının köməyi sayəsində nankor qonşularımız tərəfindən süquta uğrayır. Köçkünlüyün doğurduğu ağrı-acılar, məhrumiyyətlər...

Ümummilli liderimizin hakimiyyətə qayıdışı, Ali Baş Komandan kimi Füzuli və Ağdamda uğurlu əməliyyatlara rəhbərlik etməsi, onlarla yaşayış məntəqəsinin mənfur düşməndən azad olunması, dünyanın nəhəng dövlətlərinin ədalətsiz mövqeyi, ermənipərəst ikiüzlü siyasəti və təsiri ilə döyüşlərin yarımçıq dayandırılması...

Bütün bunları niyə xatırlayır, təfərrüatı ilə verməyə çalışıram?! Məqsədim bu gün ömrünün 60-cı zirvəsinə qədəm qoyan Şahin müəllimin çəkdiklərini bir daha gözləriniz qarşısında canlandırmaqdır. Respublikanın onlarla bölgəsinə səpələnmiş həmyerlilərinə baş çəkmək, onların həyat tərzi ilə maraqlanmaq, problemlərinin həlli istiqamətində müvafiq addımlar atmaq, tədbir görmək sizə elə də asan gəlməsin.

Hazırda bir çox ağdamlılar kimi Şahin müəllim də yeni salınmış qəsəbələrdən birində- Qasımbəylidə hər cür şəraiti olan evdə yaşayır. Ancaq bilirsinizmi ki, bura köçənədək o nələr çəkib, gözü nə qədər odlar ayaqlayıb. Bir yerdən başqasına köçüb, həmişə də həsrətlə Ağdama qayıdacağımız günləri gözləyib.

Xanabad kəndində (Yevlax), Bərdə və Mingəçevirdə məskunlaşdığı evlərlə bağlı neçə-neçə ağrılı-acılı xatirələrini dinləməlisiniz ki, onun çəkdiklərini xəyalən də olsa hiss edəsiniz.



Bu sətirlərin müəllifi onlardan müəyyən məqamın - hər gün Mingəçevirdən Bərdəyə ( o vaxt şöbə Bərdədə yerləşirdi) gəlib-getdiyinin, uzaq yol qət etdiyinin şahidi olub. Təbii ki, onunla müqayisədə Qasımbəyli- Quzanlı yolu çox yaxındır. Bununla belə, indi səbr etmək daha çətindir.

**Adətən, uzaq yol qət edən insan mənzil başına çatmağa az qalarkən daha çox darıxır, səbri daralır. Axı Ağdam 5 addımlıqdadır, necə deyərlər, əlini uzatsan çatar. Amma bir az da dözməlisən, başqa çarə yoxdur, zamanın hökmü belədir. Əsas odur ki, heç kəs boş dayanmasın, hərə öz işi, əməli, davranışı ilə o tarixi anı- Ağdama, Füzuliyə, Cəbrayıla, Kəlbəcərə, Zəngilana, Şuşaya, Qubadlıya, Laçına, Xankəndinə qovuşacağımız günü yaxınlaşdırsın. Bu mənada, mədəniyyət işçilərimizin üzərinə də böyük vəzifələr düşür. Bunu yaxşı anlayan rayon kollektivi əlindən gələni əsirgəmir.**

Fikrimizin sübutu kimi Ağdam Rayon Mədəniyyət və Turizm Şöbəsinin, şəbəkəyə daxil olan mədəni-maarif müəssisələrinin 2010-cu il fəaliyyətinə nəzər salmaq da kifayətdir. Elə buradaca rayon İcra Hakimiyyətinin başçısı Nizami Sadıqovun mədəniyyətə göstərdiyi qayğı və diqqəti xüsusi vurğulamalıyıq.



Məhz bunun nəticəsidir ki, son vaxtlar bölgədə sosial inkişafın gücləndirilməsi, quruculuq və abadlaşdırma işlərinin yeni vüsət alması, maddi-texniki bazanın möhkəmlən-

dirilməsi istiqamətində çoxsaylı layihələr gerçəkləşdirilmişdir.

Bu qayğıya cavab olaraq şöbənin özündə birləşdirdiyi mədəniyyət evi və klublar, muzey, musiqi məktəbləri və kitabxanalar da işlərində dönüş yaratmışdır. Həyata keçirilən tədbirləri sadalamağa lüzum görmürük.

Bir-birindən maraqlı, rəngarəng konsert proqramları, aşkara çıxarılan istedadlar, bayram mərasimləri, yubiley gecələri, hərbi-vətənpərvərlik tərbiyəsi, nazirliyin həyata keçirdiyi festival və müsabiqələrə fəal qoşulmalar və s. bu qəbildəndir. Ayrı-ayrı strukturların timsalında onları digər yazılarımızda nəzərinizə çatdıracağıq.

Sonda onu vurğulamaq istəyirik ki, bu sahədə qazanılan nailiyyətlərin hamısı tanınmış mədəniyyət xadimi, səriştəli rəhbər, qabaqcıl şöbə müdiri Şahin Qasımovun yüksək təşkilatçılıq bacarığının, onun işinə məhəbbətinin, vəzifəsinə məsuliyyətinin təzahürüdür. İşgüzarlığı, mehribanlığı, qətiyyəti və digər insani məziyyətləri ona eldə-obada başucalığı gətirib, çalışdığı kollektivdə, nazirlikdə və RİH-də xüsusi nüfuz qazandırıb.



**60 illik yubileyi münasibətilə Şahin müəllimi səmimi qəlbdən təbrik edərkən qeyri-ixtiyari ürəyimizdən hamımız üçün müqəddəs bir arzu keçir: "Növbəti ad günlərini, şadyanalıqları məkrli düşmənimizin mənfur caynaqlarından xilas olunmuş bütöv Qarabağımızda keçirək!!!**

**● Y. HİDAYƏTOĞLU**

